**UOT 1(091)** **Səh. (62-68)**
**DOİ: https://doi.org/10.59849/2219-7370.2025.32.62**

# AZƏRBAYCANDA MİLLİ ŞÜURUN FORMALAŞMASINDA ƏLİ BƏY HÜSEYNZADƏNİN FƏLSƏFİ İDEYALARININ ROLU

**Rafail Əhmədli**
fəlsəfə elmləri doktoru, professor
e-mail: ehmedli.rafail@mail.ru
https://orcid/0000-0003-0506-3353

## Xülasə

Məqalədə XX yüzilin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət, milli şüurun inkişafı və milli azadlıq hərəkatına təsir edən amillər, dövrın mütərəqqi ziyalılarının xısusilə, Əli bəy Hüseynzadənin bu istiqamətdə əvəzsiz fəaliyyəti araşdırılır, Onun irəli sürüb əsaslandırdığı "Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq" adlı formulunun Türk xalqlarının milli və siyasi şüurunun formalaşmasında oynadığı rol nəzərdən keçirilir. Eyni zamanda filosofun dil haqqında dışüncələri, bu istiqamətdə mətbuat orqanlarında mücadiləsi, Azərbaycanda milli şüurun formalaşmasına, "dil məsələsi"nə, vahid dilin formalaşmasına verdiyi tohfəsi vurğulanır. Əli bəy Hüseynzadənin "Türkçülük" və "Turançılıq" ideyalarının inkişafında rolu, Türkiyədə ictimai-siyasi və ideoloji-fəlsəfi fəaliyyəti "Turançılığı" həyata keçirmək üçün ayrı-ayrı Türk qövmlərini yaxınlaşdırmaq, missiyanı üzərinə götürməsi, bu məqsədlə onun nəzəri əsaslarını işləyib hazırlaması tədqiq olunur.
**Məqsəd:** XX əsri əvvəllərində Azərbaycanda ictimai siyasi mühit və milli şüurun formalaşmasında- Əli bəy Hüseynzadənin fəlsəfi ideyalarının rolunu və onun fəaliyyətini aydınlaşdırmaq.
**Metodalogiya:** Tarixilik və məntiqilik konteksində təhlil.
**Elmi yenilik:** XX əsri əvvəllərində Azərbaycan və Türkiyə mühitində milli şüurun formalaşmasında, Demokratik Respublikanın qurulmasında Əli bəy Hüseynzadənin fəlsəfi ideyalarının əhəmiyyətini və rolunu göstərmək.
**Açar sözlər.** Milli şüur, Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq, milli azadlıq, dil, Turançılıq, Türk xalqları

# THE ROLE OF PHILOSOPHICAL IDEAS OF ALI BEY HUSEYNZADE IN THE FORMATION OF NATIONAL IDENTITY IN AZERBAIJAN

**Rafail Ahmadli**
DSc, prof
e-mail: ehmedli.rafail@mail.ru
https://orcid/0000-0003-0506-3353

## Summary

The article examines the socio-political situation in Azerbaijan at the beginning of the 20th century, the factors influencing the development of national consciousness and the national liberation movement, as well as the invaluable activities of the progressive intelligentsia of that period, especially Ali bey Huseynzade. The study examines the role of the formula "Turkization, Islamization, Europeanization" put forward and substantiated by Ali bey Huseynzade in the formation of the national and political consciousness of the Turkic peoples. At the same time, the philosopher's statements

about language, his struggle in this direction in the media, his contribution to the formation of national self-awareness in Azerbaijan, the "language issue", as well as the formation of a single language are emphasized. The role of Ali bey Huseynzade in the development of the ideas of "Turkism" and "Turanism", his socio-political and ideological-philosophical activities in Turkiye to unite various Turkic peoples with the aim of implementing "Turanism", his implementation of this mission and his development and preparation of its theoretical foundations for this purpose are studied.

**Purpose**: To clarify the role of philosophical ideas and activities of Ali bey Huseynzade in the formation of the socio-political environment and national consciousness in Azerbaijan at the beginning of the 20th century.

**Methodology**: Analysis in the context of historicity and logic.

**Scientific novelty**: To show the significance and role of the philosophical ideas of Ali bey Huseynzade in the formation of national consciousness in Azerbaijan and Turkiye at the beginning of the 20th century and in the formation of the Democratic Republic.

**Key words**: National consciousness, Turkification, Islamization, Europeanization, national freedom, language, Turanism, Turkic peoples.

## РОЛЬ ФИЛОСОФСКИХ ИДЕЙ АЛИ БЕКА ГУСЕЙНЗАДЕ В ФОРМИРОВАНИИ НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ В АЗЕРБАЙДЖАНЕ

**Рафаиль Ахмедлы,**
доктор философских наук, профессор
e-mail: ehmedli.rafail@mail.ru
https://orcid/0000-0003-0506-3353

### Аннотация

В статье исследуется общественно-политическая ситуация в Азербайджане, в начале XX века, факторы, влияющие на развитие национального самосознания и национально-освободительного движения, а также неоценимая деятельность прогрессивной интеллигенции того периода, особенно в лице Али бека Гусейнзаде. Наиболее важным достижением Али бека Гусейнзаде на общественно-политическом поприще, по мнению современников, было создание новой системы идеологии тюркской нации, т.е. выдвижение единой триады: тюркизация, исламизация, европеизация. Направления деятельности Гусейнзаде: просвещение народа, пробуждение национального самосознания и развитие национального языка. В статье освещается роль Али бека Гусейнзаде в развитии идей «тюркизма» и «туранизма», его общественно-политическая и идейно-философская деятельность в Турции по объединению различных тюркских народов, с целью осуществления миссии «туранизма», разработка и подготовка теоретических основ для этой цели.

**Цель**: выяснить роль философских идей и деятельности Али бека Гусейнзаде в формировании общественно-политической среды и национального сознания в Азербайджане в начале XX века.

**Методология**: анализ в контексте единства принципов исторического и логического.

**Научная новизна**: показано значение и роль философских идей Али бека Гусейнзаде в формировании национального самосознания в Азербайджане и Турции в начале XX века, а также становлении Демократической Республики.

**Ключевые слова**: национальное сознание, тюркизация, исламизация, европеизация, национальная свобода, язык, туранизм, тюркские народы

XIX yüzilin sonlarından Azərbaycanda kapitalizmin inkişafı milli burjuaziyanın yaranması milli şüurunun oyanışına, milli mənəvi və maddi mədəniyyətin inkişafına, milli azadlıq hərəkatının yüksəlişinə böyük təsir göstərdi. XX yüzilin əvvəli birinci rus burjua demokratik inqilabının təsiri ilə mətbuatda, ictimai-siyasi həyatın müxtəlif sahələrində müəyyən azadlıqlar əldə olundu və milli mətbuatın inkişafı başladı. Birinci olaraq milli ideoloji mətbu orqan kimi «Şərqi-Rus», bundan sonra «Həyat», «Molla Nəsrəddin», «Füyuzat», daha sonra isə «Açıq söz», «İstiqlal», «Azərbaycan» və s. kimi qəzet və jurnalların sayəsində milli azadlıq hərəkat bütün Azərbaycanı əhatə etməyə başladı. Quzey Azərbaycanda vüsət alan milli hərəkat, milli şüurun inkişafı İran məşrutə hərəkatına da təsirsiz qalmamışdır. Cənubi Azərbaycandada milli şüur, milli azadlıq hərəkatı (1906-1911) daha da yüksəlir. Bu illərdə Azərbaycanda ön sıralarda «Molla Nəsrəddin»çilər olmaqla inqilabi-demokratiya ideyaları sürətlə inkişaf edir, siyasi və milli şüur formalaşır. Qeyd olunan bu proseslərin iştirakçıları dövrün ictimai-siyasi, milli intibahı, milli şüuru və nəhayət, Azərbaycan Xalq Cümhuriyyəti ilə nəticələnən demokratik milli istiqlal hərəkatının əsas bazasını hazırlamışdır. Bu milli hərəkatın formalaşmasında bir sıra böyük mütəfəkkirlərimizin əvəzsiz xidmətləri olmuşdur. Xüsusilə, siyasi maarifçilərimiz millətin siyasi şüurunun inkişafı istiqamətində çalışaraq bu istiqamətdə müəyyən nailiyyətlər əldə etmişlər.

Belə «Mütəfəfəkkirlər qüdrətli zəka sahibləri, nəinki yaşadıqları dövrün, özlərindən sonrakı dövrlərin fövqündə duran insanlardır. Onların fikir dünyası mürəkkəb, geniş və çoxçalarlıdır, kəlamları milli zehniyyət və psixologiyanın dərin qatlarına nüfuz edir, gələcəyə işıq salir»[6, 4].

Bu mütəfəkkirlərimizdən ən öndə gedənlərdən, Azərbaycan xalqının ictimai siyasi həyatında bir yazıçı, filosof, ideoloq, “Turan” ideyasının ardıcıl təbligatcısı və bu istiqamətdə yorulmadan fəaliyyət göstərən, “Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq” kimi ideoloji sisteminin yaradıcılarından biri, Türk- müsəlman xalqlarının və dövlətlərinin inkişafı, birliyi istiqamətində çalışan, xalqımızın milli şüurunun inkişafında misilsiz xidmətləri olan, istiqlal mücahidi Əli bəy Hüseynzadənin ictimai fikir tariximizdə özünəməxsus yeri və rolu vardır.

Azərbaycan xalqının milli şüurunun formalaşmasında və milli oyanışında müstəsna rol oynamış, millətimizin İslam ümmətçiliyindən İslam millətçiliyinə, oradan da Türk millətçiliyinə keçidin əsas ideya və əməli rəhbərlərindən biri olan Əli bəy Hüseynzadə özünün irəli sürüb əsaslandırdığı “Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq” adlı milli dirçəliş və milli istiqlal formulu ilə Türkçülüyün siyasi Məramnaməsini və elmi-nəzəri əsaslarını, müasirlərinin söylədiyi kimi, Milli İstiqlal Mücadiləsinin “Ana Yasası”nı verməklə milli tariximizə “Türkçülüyün Atası” kimi öz əbədi imzasını atmışdı [10,7-8].

Dəyərli düşüncələri və yazıları ilə bir sıra mətbu orqanlarda sözün əsl mənasında mübarizə aparan Əli bəy Hüseynzadə naşiri, redaktoru, yazarı oldugu qəzet və jurnallarda xalqın milli şüurunun formalaşmasında, onların maariflənməssində, siyasi fikrinin inkişafənda olduqca məhsuldar çalışmışdır.

Filosof “Türklər kimdir və kimlərdən ibarətdir” adlı məqaləsində Türklərin İslamaqədərki və İslamı qəbul etdikdən sonrakı dövrü təsvir etmiş, İslam dinini qəbul etməmiş, Xristianlığa və Yəhudiliyə etiqad edən Türklərdən bəhs etmiş və göstərmişdi ki, Türklər öz əvvəlki dinlərinə sadiq qalmaqla yanaşı, xristianlığı qəbul etmələri onları slavyanlar və bu kimi qeyri xalqların içərisində əriyib getməsinə səbəb olmuşdu. Müəllif Türklərin İslamı qəbul etmələrini isə təqdirəlayiq hal kimi dəyərləndirmiş və göstərmişdi ki, Türklərin vahid bir din ətrafında birləşmələri onların özlərini qoruyub saxlamaları üçün daha məqsədəuyğundur [9].

Əli bəy Hüseynzadə Rusiyada baş verən siyasi çaxnaşmaları analiz edərək belə bir nəticəyə gəlmişdi ki, mütləqiyyətin sonu çatmışdır. Qarşıda bizi gözləyən daha böyük və gözlənilməz hadisələrə indidən hazır olmalıyıq. Çünki, gələcəkdə çarizmin devirilməsi baş verə bilər və bu əsarət altında olan Türk xalqlarının azadlıqlarını əldə etməsinə, böyük və Ulu Turanın dünyanın siyasi meydanına çıxmasına imkan verə bilər. Bu məqsədlə mütəfəkkir Türk xalqlarını Turan məfkurəsi altında birləş-

məyə, Turançılıq ideyalarına möhkəm sarılmağa çalışmış və gələcəklərinin onların öz əllərində olduqlarını dönə-dönə qeyd etmişdir.

Filosofun fəlsəfi dünyagörüşünün mühüm bir hissəsini də onun dil uğrunda mübarizəsi təşkil edir. Mütəfəkkirin başçılıq etdiyi "Füyuzat" jurnalı və eyni adlı ədəbi cərəyan (Füyuzatçılar) XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında mühüm xidmətlər göstərmişdir. "Füyuzat" jurnalı Azərbaycanda milli şüurun formalaşmasına, milli mücadiləyə, xüsusilə, "dil məsələsi"nə yeni bir inkişaf gətirərək vahid dilin formalaşması üçün öz tohfəsini vermişdi. Bu jurnalın fəaliyyətini araşdıran tədqiqatçı alim Sədaqət Hüseynova özünün ""Füyuzat" jurnalı və dil problemləri" adlı monoqrafiyasında yazır: "Əli bəy Hüseynzadə mənsub olduğu millətin dilinə çox böyük həssaslıqla yanaşırdı. Fəaliyyətinin əvvəlindən axırına qədər Türklər və onların dil məsələsi onun üçün ən önəmli problem olmuşdur. Türk xalqlarının dilinə təcavüz, Türk dili arasında ayrılıqların inkişaf etməsi və getdikcə artması səbəbi ilə Türklərin bir-birini anlamaması, ona görə də, bir-birini yetərincə tanımaması məsələləri böyük filosofu dərindən düşündürən problemlər idi... Öz ehtiyaclarından danışmağa ixtiyarı qalmayan Türklərin ən böyük faciəsini və ən böyük gələcəyini dildə görən ziyalıların birincilərindən olan Əli bəy... Türk dili faciələri müqabilində bir işıqlı yol, gerçəyə çeviriləcək, gələcəyə aparacaq bir nicat görür, güvənc yeri olan bir faktla qürur duyurdu. Bu, Türk dilinin çox mühüm və spesifik bir əlaməti özünü qoruma qabiliyyəti idi. Əli bəy bu dəyəri çox yüksək qiymətləndirir, bu xüsusiyyəti Türk dilinin əbədiliyini, yaşamını müəyyənləşdirən bir cəhət hesab edirdi... Millətin dil problemləri onun Türkçülük ideyalarının əsas səbəblərindən biri idi. Əli bəy Hüseynzadənin dilçilik elmi sahəsindəki fəaliyyətində üç əsas məqsəd diqqəti cəlb edir: 1) Eyni ölkənin müxtəlif bölgələrindəki Türk şivələri arasındakı fərqlərin aradan qaldırılması; 2) İstanbul Türkcəsinin Azərbaycanda yayılması; 3) Türk millətinə məxsus olan ayrı-ayrı Türk xalqlarının dilləri arasındakı fərqlərin aradan qaldırılması və nəticədə vahid ümumtürk dilinin yaradılması" [8,121].

Mütəfəkkir son əsrlərdə qüvvətlənən "ruslaşdırma" siyasətinə qarşı "Türklüyü", onun təmizliyini və birləşdirmə yollarını irəli sürür və göstərirdi ki, "Müsəlmanlar, xüsusən də Türklər harada olurlarsa olsunlar – istər Osmanlı, yaxud Qaraqorum civarında, onlar bir-birini tanıyacaq və sevəcəklərsə, sünnülük, şiəlik, daha nə bilim hansı adlarla məzhəb təəssübünü azaldıb... dinin əsasının Quran olduğunu başa düşəcəklərsə, bu kifayət etməzmi?"[11].

Filosof hələ 1905-ci ildə öz məramını bəyan edərək yazırdı: "Biz insanız. Məlum olan sinifləri zalım siniflərin təcavüzatından azad etməyə çalışacağız. Biz Qafqazlıyız. Qafqaz əhlinə və umuri-idarəsinə (idarə işlərinə – R.Ə.) özü baxa bilmək üçün lazım gələn Muxtariyyət tələb ediniz. Biz müsəlmanız. Binaənəleyh (buna görə – R.Ə.) öz əqaidi-diniyyəmizə (dini əqidəmizə – R.Ə.), hürriyyəti-vicdanımıza (vicdan hürriyyətimizə – R.Ə.) hər nə lazımsa, onu istəyiniz. Biz Türküz. Dilimizin, lisanımızın tərəqqisinə mane olan hər növ sədlərin, divarların yıxılmasına, rəf olunmasına (ləğv olunmasına – R.Ə.) qeyrət ediniz" [7].

Öz yazılarında Turanın sərhədlərini qeyd edən filosof hələ 1907-ci ildə yazırdı: "Mancuriyadan və Sibiryanın ərsayi-şərq şimalında cərəyan edən Lena nəhri sahilindən başlayıb, Altay, Qaraqurum, Pamir, Hindiquş, Qafqaz, Krım dağlarından keçərək Balkan dağlarının müntəhayi-qərbinə qədər (qərb sərhəddinə qədər – R.Ə.), ərzən (dəyərli – R.Ə.) Ural dağlarının müntəhayi-şimalından (şimal sərhəddindən – R.Ə.) Afrikanın səhrayi-Kəbirinə (Böyük səhrasına – R.Ə.) qədər olan yerlərdə sakin bulunan əhalinin ismi-əzəmi (ən böyük adları – R.Ə.) türk dili ilə mütəkəllim (danışan – R.Ə.) bulunurlar" [4].

Mütrəfəkkir öz şeirlərində də Türk dilinin və Türk millətinin yayıldığı və hökm sürdüyü geniş əraziləri də göstərərək yazırdı:

*"Eylər dili Çin səddinədək hökmünü icra,*
*Bir ucudur Altay bu yerin, bir ucu səhra".*

Müəllif "bir ucu səhra" dedikdə Afrikanın "Böyük Səhra"sını (Səhrayi-Kəbiri) nəzərdə tuturdu. O, "Məcnun və Leylayi-İslam" adlı məqaləsində xəstəliyə tutulan, beyni Türkiyə, ürəyi Ərəbistan, ciyərləri İrandan ibarət olan

İslam coğrafiyasını müalicə etmək və sağlam Turan İmperiyası yaratmaq, orada müsəlman dövlətlərinin mövqeyini müəyyənləşdirmək məsələsini irəli sürmüşdü.

Tədqiqatçılar göstərirlər ki, "Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq" düsturu daha əvvəl, bir az mübhəm (qeyri-müəyyən – R.Ə.) olaraq Əli Suavi (1839-1878-ci illərdə yaşayıb yaratmış Türk siyasi və fikir adamı, qəzetçi, Yeni Osmanlı Cəmiyyətinin üzvü və ilk Türkçülərdən sayılır – R.Ə. [49]. tərəfindən irəli sürülüb və müdafiə olunub. Lakin Əli Suavi hələlik Türkçülüyün qüvvətli rol oynamadığı və Namiq Kamalın Osmanlı-İslam zehniyyətinin hakim olduğu bir zamanda yaşadığı üçün fikirləri unutmalı olub. Halbuki Hüseynzadənin təklifi tam zamanında oldu. Əli bəy Hüseynzadənin 1905-ci ildə Tiflisdə irəli sürdüyü bu fikir ("Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq" düsturu nəzərdə tutulur – R.Ə.) 7 il sonra 1912-ci ildə hərarətli tərəfdarlar qazandı" [2].

"Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafəli fədai" tərbiyə edib yetişdirmək ideyasını irəli sürən filosof yaradılmasını nəzərdə tutduğu milli cəmiyyət quruculuğunda müasir insan amilinə böyük önəm verirdi. Əslində, Əli bəy Hüseynzadəni düzgün anlamayan o dövrün Şərqçi və İslamçıları kimi Avropaçı düşüncə sahiblərinə də onun "Avropalaşmaq" fikri yad bir fikir kimi görünürdü.

Böyük mütəfəkkir Əli bəy Hüseynzadənin fəlsəfi görüşlərində millətinin tərəqqi və oyanışı, milli şüurunun formalaşması, mədəni yüksəlişi mühüm yer tutur. Müəllif yazır: "Maarif, ittihad (milli birlik), hürriyyət (azadlıq), nə qədər gözəl nemətlər! Bunları unutmayalım! Çünki, əsl nicat bu üç qüvvədədir... Bizim özümüzə məxsus daha layiq, daha şanlı bir vəzifeyi-mücahidəmiz (çalışma, səy etmə vəzifəmiz – R.Ə.) vardır ki, o vəzifə də zülməti-qəflətdə bulunan (qəflət qaranlığında olan – R.Ə.) külliyyəti-avam (çoxluq olan savadsız, avam) arasında nuri-maarifi (maarif nurunu – R.Ə.) əkməkdir... Bilgi... və elm, lisan (dil) ilə olur. Bu, əcnəbi lisanında dəxi elm təhsil oluna bilər. Fəqət bu surətlə təhsil olunan elm məhdud fərdlərin beynində qalır. MİllƏtin əksəriyyəti arasında yayılmır. Elm və maarif əksəriyyət beynində inkişaf etmək üçün lazımdır ki, millətin öz ana dili maarif təhsilinə alət (vasitə) olsun... Avropa elminə, maarifinə, ədəbiyyatına, sənət və sənayesinə bələd olmağa və millətimiz beynində yaymağa çalışmalıyız... Biz Avropalıların ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istəyirik, özlərinə deyil! Biz istəyirik ki, İslam ölkəsinə onların beyinləri girsin, boğazları, mədələri girməsin. Biz istəyirik ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın!" [10,7].

Göründüyü kimi Əli bəy Hüseynzadə belə hesab edirdi ki, azərbaycanlıların milli məfkurəsi "Türkləşmək", dini məfkurəsi "İslamlaşmaq"dırsa, iqtisadi, mədəni və sosial-siyasi məfkurəçi "Avropalaşmaq" (müasirləşmək – R.Ə.) olmalıdır. Bununla böyük mütəfəkkir XX əsrin böyük kəşflər, yeni texnologiyalar əsri olacağını öncədən görür və öz xalqını və bütünlüklə Türkləri təkcə şanlı keçmişləri ilə öyünməyə deyil, həmçinin elm, texnologiya əsrində dünya xalqları içərisində özünəlayiq yer tutmağa çağırırdı. O, XX əsri "elm və bilik əsri" kimi dəyərləndirməklə mənsub olduğu Türk millətinin elmlə, təhsillə inkişaf edəcəyinə inanır, milli istiqlala gedən yolun öz başlanğıcını elmdən, təhsildən aldığını bəyan edirdi.

"Türk" kəliməsinin dilə belə gətirilmədiyi, "Mən türkəm!" söyləməyə imkan verilmədiyi, hətta qadağan olunduğu bir dövrdə böyük ideoloq Əli bəy Hüseynzadə "Həyat" qəzetində çap etdirdiyi "Türklər kimdir və kimlərdən ibarətdir" adlı məqaləsi ilə Türk xalqlarına, o cümlədən də Azərbaycan Türklərinə üz tutaraq "Biz Tatar deyilik, biz Türkük"" – deyə hayqırdı, xalqa öz adı ilə "Türk" dedi və bunu başqalarına da dedirtdi, Türklərin kimliyini onlara anlatdı. Bu anlamda demək olar ki, Azərbaycanda "Türkçülük Hərəkatı"nın həqiqi tarixi Əli bəy Hüseynzadənin redaktoru olduğu "Həyat" qəzeti ilə başlamışdır. Lakin Əli bəy Hüseynzadənin "Türkçülük, İslamçılıq, Avropaçılıq" kimi ideyaları Türklərin əbədi düşmənləri, xüsusilə, rusların əslində Türklərə qarşı hər zaman alət rolu oynayan Hayları ciddi narahat etdiyindən onların xəfiyyələri Qafqaz canişinə donoslar göndərərək "Həyat" qəzetinin sərlövhəsindəki "Türk" sözünün silinməsini istəmiş, Qafqaz canişini də "Türk" sözünün silinməsi

əvəzinə "Tatar" sözünün yazılmasını əmr etmişdi. Lakin Əli bəy nəinki "Türk" sözünü "Tatar"la əvəzləmiş, əksinə, "Biz ki, Türk oğlu Türkük! Biz ki, millətlərin ən qədimi və ulusuyuq!" – deyə Türklüyü təsdiq etməkdə davam etmiş, buna görə də Türk düşmənlərinin təzyiqi ilə "Həyat" qəzeti qapadılmışdı [10, 7].

Həyatının böyük bir hissəsini "Türkçülük" və "Turançılıq" ideyalarına sərf edən Əli bəy Hüseynzadənin Türkiyəyə mühacirət dövrü filosofun "Türkçülük" və "Turançılıq"la bağlı dünyagörüşünün inkişafında xüsusi rol oynayır. Burada ictimai-siyasi və ideoloji-fəlsəfi fəaliyyətlə daha ciddi məşğul olan Əli bəy, Ziya Göyalp, Yusif Akçura, İshak Sükuti, İbrahim Temo və başqaları ilə birlikdə "İttihad və Tərəqqi" Cəmiyyətinin əsasını qoyur. Cəmiyyət nəzəri "Turançılığı" həyata keçirmək üçün ayrı-ayrı Türk bölgələrində tarixi ədalətsizliklə bir-birindən ayrı düşmüş müxtəlif Türk qövmlərini yaxınlaşdırmaq, onlar arasında əlaqə yaratmaq kimi böyük bir missiyanı üzərinə götürmüş, bu məqsədlə onun nəzəri əsaslarını işləyib hazırlaya bilmişdilər.

Filosof dünyadakı türklərin birliyini təmin etmək üçün dillə yanaşı ən qüvvətli amillərdən birini də İslam dinində görürdü. Bununla bağlı yazırdı: "Türklərin külliyyatı etibarilə sair dinlərə meyl və istedad göstərməmələri və nadirən göstərənlərin isə milliyyət və qövmiyyətlərini qayıb edərək gah Çinli, Moğol və Hindulara, gah əqvami-nəsəraya (xristian qövmlərinə – R.Ə.) qarışıb qayıb olmaları və bilakis (əksinə - R.Ə.) Türklərin ancaq müsəlmanlığa meyyal və müştaq (meylli və can atan – R.Ə.) bulunmaları və İslamı qəbul etdikdən sonra bir tərəfdən aləmi-İslamın (İslam aləminin – R.Ə.) mühüm bir rükn (sütun) və istinadgahı sırasına keçmələri, digər tərəfdən də ancaq və ancaq bu dini mübin (aşkarlıq) sayəsində öz qövmiyyət və milliyyətlərini mühafizə edib təmini bəqa (daimi əbədi – R.Ə.) edə bilmiş olmaları fövqəladə sayani-diqqət bir maddədir [9].

Filosof "Həyat" qəzetinin 1905-ci il 94-cü sayında (1905-ci il Rus inqilabından ruhlanaraq) "Hürriyyət" başlıqlı məqaləsində yazır: "Hürriyyət!... O nə qüvvədir ki, yalnız zikri belə inşirahi-dərunə (şənlik içində) səfayi-qəlbə badi (qəlbin səfasına səbəb) oluyor. Zehinləri, fikirləri, xəyalları, bəşərin bütün ruh və mənəviyyatını ülviyyata (yüksəlişə, ucalığa – R.Ə.) sövq ediyor! Yalnız zikrin eşidən insanların qanadlanıb uçacaqları, balalara pərvaz edəcəkləri gəliyor!... O nə qüvvədir ki, onun yolunda neçə-neçə fikirlər, zəkalar, dühalar, dühayi-müəzzəmlər... məhbəslərdə, qürbətlərdə, mənfalərdə (sürgünlərdə – R.Ə.), Sibirya çöllərində hər növ iztirabları (əziyyəti – R.Ə.), hər növ əza (əziyyət) və cəfayı qəbul etdilər. O nə qüvvədir ki, onun zahiri (meydana çıxması – R,Ə.) bəşəriyyətin ona nailiyyəti bu həngamələrə, bu qiyamətlərə, bu zəlzələlərə, mənəvi zəlzələlərə bais oldu. Məmləkəti sərasər bir mübarizə meydanına çevirdi. Bütün əhaliyi, bütün millətləri firqə-firqə edib, yekdigərlərilə o meydanda müsariəyə, mücadiləyə, məcnunanə bir mücadiləyə məcbur elədi!... Biz nə məsuduz, nə bəxtiyarız ki, haləti-bidaridə (ayıq vəziyyətdə – R.Ə.) olduğumuz halda o zəncirlərin həqiqətən qırıldığını, parça-parça olub töküldüyünü görməyə nail olduq! Xeyr! Bu xab (yuxu – R.Ə.) və röya deyildir. Billah bu məhz həqiqətdir! Ey illərdən, əsrlərdən bəri üzünə, hüsni-didarına (gözəl üzünə, camalına – R.Ə.) müstaq (həsrət) olduğumuz, həsrət çəkdiyimiz hürriyyət! Bu gün sənin camalını, hüsn və anını bütün şəşəsilə, dəbdəbə və dirayətlə (məlumatla), bütün şuriş (çaxnaşma, qarışıqlıq – R.Ə.) və qiyamətlərilə seyr və tamaşaya başladıq!... Dərdlərə dərman sənsən, sən! Yaralara məlhəm sənsən sən!... Həqq və həqiqətin təcəllasına, məhkəmeyi-müsavatda ədalətin bihəqq hökmranlığına yol göstərən sənsən, sən!... Bəşəriyyətin ən böyük ehtiyacı, mədəniyyətin tərəqqi və təkamülünün ən qəvi mühərriki olan ictimalara, cəmiyyətlərə, şirkətlərə, ittifaqlara, ittihadlara, sərbəytiyi tam verən sənsən, sən!...Vəlhasil insanlara bilafərq lisan və şivə, bilafərq din və məzhəb, bilafərq qövm və millət, əfkar və amalın, həvayi-nəsimində sərbəst nəfəs almağa müsaidə edən sənsən, sən! Yaşa hürriyyət, yaşa... Buraxınız, mən avazım çıxdığı qədər bağırayım! "Yaşa hürriyyət yaşa!"[3, 83-84-85].

Bütün bunlara baxmayaraq "Hürriyyət Aşiqi" mütəfəkkir qanlı inqilabların əleyhinə olmuş, inqilabi hərəkatları "bombaların vəhşiyanə rəqsi" kimi dəyərləndirmiş və bunun səbəbini belə izah etmişdi: "Bütün bu əhvalatın səbəbi nədir, bilirsinizmi? Səbəbi Həzrəti İsa

ilə Həzrəti Məhəmmədin... əsrlərdən bəri bəşəriyyətə təlqin etmək istədikləri məhəbbəti-mütəqabilənin (qarşılıqlı məhəbbətin – R.Ə.) nöqsan və məfqudiyyətidir (mövcud olmaması, yox olmasıdır!)... Rusiyada mühafizəkaran ilə inqilabpərvəranın, camaatla bürokratiyanın, zəngin siniflərlə fəqirlərin, fiqurayi-kasibənin arasında məhəbbət qalmamışdır" [5].

Mütəfəkkir inqilabın bütün ölkələr üçün zəruri olmadığını əsaslandıraraq göstərirdi ki, "nə Türkiyə inqilab məmləkətidir, nə də Türklər ingilislər kimi təkamül təriqi (təkamül yolu – R.Ə.) ilə tərəqi edən bir qövmdürlər" [4, № 7. ].

Filosof, "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" adlı məqaləsində göstərirdi ki, zamanımız inqilablar dövrüdür. Bəşəriyyət irəliyə doğru inqilab şəklində bir addım atmaq istərkən qarşısında irtica şəklində təhlükəli bir qüvvə çıxır və onu geri atmağa çalışır. İnqilab ilə irtica mübarizə edir. Bu mübarizə nəticəsində çoxlu qan tökülür. Müsəlmanlar da tədricən bu işə qoşulur. Biz də oyanmağa, ayağa qalxmağa məcbur oluyoruz. İbtida (Əvvəlcə – R.Ə.) sərsəm bir halda bölünüyoruz, sonra bu qarışıqlıqda yıxılır, əzilir, qana bulanırıq, ağlımız başımıza gələndən sonra özümüzə ayrı bir yol arıyoruz, bulur gibi oluyoruz da" [4, , № 32 ].

Əli bəy Hüseynzadə inqilabı "mərəz" (xəstəlik) adlandırmış, inqilaba cəmiyyətdə bir "böhran" kimi baxmış, onu inkişaf etmiş xalqlar üçün nöqsan hesab etmişdi. Dünyada baş verən sosial-siyasi qarışıqların səbəbini şərh edərkən mütəfəkkir göstərirdi ki, bu gün bütün cahanı sarsıdan, münaqişə yaradan, çaxnaşma salan üç mühüm cərəyanın, yəni "imperializm, nasionalizm və sosializm" cərəyanlarının ən faciəli fəaliyyət sahəsi Qafqaziya və xüsusən Azərbaycan oldu [1, 138].

Müxtəlif sahələrə aid yazdıgı elmi, ədəbi, fəlsəfi, siyasi əsərləri ilə türk -müsəlman xalqlarının, xüsusilə, Azərbaycan Türklərinin milli şüurunun formalaşması və inkişafında böyük rolu olan Əli bəy Hüseynzadə XX əsrin əvvəllərində milli oyanış hərəkatına böyük töhfə vermiş, "Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq" kimi üç sütunlu doktrinanın Azərbaycan Cümhuriyyətinin dövlət atributu olan Bayrağında reallaşmasında xidmətlər göstərmişdir.

**İstifadə olunmuş ədəbiyyat**


1. Ali Haydar Bayat, "Azerbaycan'ın Yiğit Evladı" Ali Bey Hüseyinzâde ve Türkiye'de Yayınladığı Eserleri, Türk Dünyası Araştırmaları Vakfi Yayınları, İstanbul, 1992.
2. Aşırlı Akif "Əli bəy Hüseynzadə: olduğu kimi", "Şərq" qəzeti, 24.01.2018. (Hilmi Ziya Ülken Ali Turan, "Yeni insan" dergisi, dekabr 1969, sayı № 84.)
3. Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri, "Şərq-Qərb", Bakı, 2007, səh. 83, 84, 85.
4. "Füyuzat" jurnalı, 1907, № 9.
5. "Füyuzat" jurnalı, 1906, № 6.
6. Hacıyeva Arzu. Azərbaycan mütəfəkkirləri zamanın konteksində. "Elm və təhsil" Bakı, 2017, s. 4.
7. "Həyat" qəzeti, 2 iyun 1905.
8. Hüseynova Sədaqət ."Əli bəy Hüseynzadə milli istiqlal və Turan aşiqi" "Zaman" qəzeti, 20 iyun, 2013, № 110, səh.
9. Hüseynov Elmar , Türk qanlı, İslam imanlı, Avropa qiyafəli Əli bəy
10. Quliyev Əsgər. Əli bəy Hüseynzadə; Türkçülüyün atası və böyük maarifçi, "525-ci qəzet", 7 fevral, 2014, səh. 7-8.
11. Vəliyeva Sona , Əlimərdan bəy Topçubaşov və Azərbaycan məfkurəsi, azadinform. az/az/baxış- bucai/155090/elimerdan-bey-topçubaşov-ve-azerbaycançiliq-mefkuresi/.


**Rəyçi:** **f.ü.f.d. Faiq Ələkbərli**

**Göndərilib: 03.03.2025** **Qəbul edilib: 17.03.2025**